# Görkəmli musiqi xadimləri

**Müğənni, lirik tenor, pianoçu, pedaqoq Rauf Atakişiyev 1925-ci il iyulun 15-də Göyçayda anadan olub.**



Moskva Dövlət Konservatoriyasını və orada aspirantura pilləsini bitirəndən sonra Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub. Teatrda Əsgər ("Arşın mal alan"), Faust ("Faust"), Qraf Almaviva ("Sevilya bərbəri", Coakkino Rossini), Knyaz Sinoda ("Demon", Anton Rubinşteyn), Hofman ("Hofmanın nağılları", Jak Offenbax), Malxaz ("Daisi", Zaxari Paliaşvili), Alfred ("Traviata", Cüzeppe Verdi), Edmond ("Kornevil zəngləri", Rober Plaket), Anatoli ("İnsanın taleyi") partiyalarını oxuyub. 1967-ci ildə Azərbaycanın xalq artisti fəxri adına layiq görülüb.

Rauf Atakişiyev Azərbaycan Dövlət Konservatoriyasında (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) uzun illər dərs deyib, fortepiano kafedrasına rəhbərlik edib, bir çox beynəlxalq müsabiqələrin münsiflər heyətinin üzvü olub.

*

**Bu gün Azərbaycan bəstəkarı, professor, Xalq artisti Azər Rzayevin isə 95 yaşı tamam olur.**

Məşhur opera müğənnisi Həqiqət Rzayevanın oğlu olan Azər Rzayev Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Yaradıcılıq fəaliyyətində beynəlxalq və Ümumittifaq müsabiqələr laureatı və diplomantı, Azərbaycan gənclərinin I və II festivallarında həm bəstəkar, həm də ifaçı kimi laureat adlarına layiq görülüb.

Bəstəkar Azər Rzayev skripka ilə simfonik orkestr üçün 3 konsertin, 6 poemanın, o cümlədən "Həyat vurğunu", "Nəsimi", "Atamın xatirəsinə" poemalarının, "Bakı-90" simfoniyasının, skripka ilə orkestr üçün "Fədai-Vətən", violonçel və simfonik orkestr üçün "Poema-konsert"in, tar və simfonik orkestri üçün "Düşüncə" və "Qaytağı", fortepiano və simfonik orkestr üçün konsertin, habelə "Hacı Kərimin Aya səyahəti" adlı bir operettanın, çoxlu sayda kamera-instrumental əsərlərin, tamaşalara yazılmış musiqilərin müəllifidir.



***Ə.ƏLİYEV***
***XQ***